**Azərbaycan Respublikasının**
**Belçika Krallığındakı Səfirliyi**

Haradan: SBRS

Haraya: MİHİ, MİƏİ

Surəti: Aİ üzv ölkələrindəki Səfirliklərə, SVŞN, NAVŞ, NNAT

Çıxış nömrəsi: SBRS/ 791 /15

Tarix: 17 / 12 /15

Sənəd necə göndərilir: Elektron poçt

Səfirliyin ........................N-li məktubuna istinad

Səhifələrin sayı: 1+ 3

Əlavə olunur

Məhdudluq qrifi: Adi

Təcililiyi: Adi

Vacibliyi: Vacib

Əvvəlki müraciətlər:

XİN-in .................... N-li məktubuna cavab
.................................................tarixinə qədər cavab verilməlidir

Məruzə üçün: Nazirə,
Nazir müavini: M.Məmməd-Quliyevə

Məlumat verilməsi üçün: AR Prezidentinin Administrasiyasına
AR Milli Məclisinə

**Məsələyə dair:** *Avropa Xarici Fəaliyyət Xidmətinin rəsmisi Silvio Qonzato ilə keçirilmiş görüşə dair*

Səfir: Fuad İsgəndərov

İcraçı: Anar Şükürov

Nəzərinizə çatdırırıq ki, 11 dekabr 2015-ci il tarixində Avropa Xarici Fəaliyyət Xidmətində (EEAS) Ümumi İşlər departamentinin direktoru Silvio Qonzato ilə görüş keçirmişdir. S.Qonzato hazırkı vəzifəsində Aİ institutları arasında strateji kommunikasiya işlərinin həyata keçirilməsi, EEAS-la Avropa Parlamenti arasında münasibətlərin əlaqələndirilməsi, daxili təftiş və auditin aparılmasına məsuldur. O, bundan əvvəl EEAS-da İnsan hüquqları və Demokratiya idarəsinin rəhbəri vəzifəsində çalışmışdır.

Səfir yeni təyinatı münasibətilə S.Qonzatonu təbrik etmiş, hazırkı vəzifəsində ona uğurlar arzulamışdır. Daha sonra, səfir Azərbaycan – Aİ ikitərəfli münasibətlərinin gündəliyində duran aşağıdakı məsələləri qeyd etmişdir:

- Avropa Parlamenti tərəfindən Azərbaycanla bağlı qərəzli və qeyri-obyektiv qətnamənin qəbul edilməsi Aİ-nin ölkəmizə münasibətini anlamaqda çətinlik yaradır. Artıq iki ildir ki, ard-arda Avropa Parlamenti ölkəmiz əleyhinə qətnamə qəbul edir və maraqlısı da odur ki, bu müddət ərzində Avropa Parlamentinin üzvləri Azərbaycana səfər etməmiş və öz həmkarları ilə müzakirələr aparmamışdır. Avropa Parlamenti Aİ-nin insitutlarından biridir və onun Azərbaycanla bağlı qəbul etdiyi hər hansı sənəd istər-istəməz bütövlükdə Aİ-nin mövqeyi kimi başa düşülür. Nəzərə almaq lazımdır ki, Avropa Parlamentinin məlum qətnaməsində ali nümayəndə F.Moqerini və komissar Y.Hanın birgə bəyanatlarına istinadlar var ki, bu da həmin qətnamənin ərsəyə gəlməsində EEAS və Avropa Komissiyasının rolunu istisna etmir. Qətnamələrin ikitərəfli münasibətlərə verdiyi zərərin məsuliyyətini yalnız Avropa Parlamentində görmək çətindir.

- Arif və Leyla Yunusların həbsi və şərti azadlığa buraxılması ilə bağlı məhkəminin müvafiq qərarlarına dair Aİ-nin fərqli səviyyədə bəyanatlar verməsi Azərbaycan tərəfinin diqqətini çəkmişdir (azadlıqdan məhrum edilmə hökmünə dair bəyanat şəxsən ali nümayəndə F.Moqerini və komissar Y.Han tərəfindən, azadlığa buraxılma haqda qərara dair bəyanat isə EEAS-ın sözçüsü tərəfindən verimişdir). Bundan əlavə L.Yunusla bağlı sonuncu məhkəmə qərarına istinad Aİ-nin müvafiq bəyanatında düzgün əksini tapmamışdır (bəyanatda L.Yunusun azadlığa buraxılması haqqında məhkəmə qərarı yanlış şəkildə onun səhhətində yaranmış problemlərlə əlaqələndirilmişdir). Avronest Parlament Assambleyasının həmsədri Heidi Hautala və Avropa Parlamentində Aİ – Azərbaycan parlamentlərarası əməkdaşlıq qrupunun sədri Səyyad Kərimin məsələ ilə bağlı birgə bəyanatının məzmunu konstruktivlikdən kənar olmuşdur.

- Aİ-nin insan hüquqları üzrə xüsusi nümayəndəsi Stavros Lambrinidisin Arif və Leyla Yunusları azadlıqdan məhrum etmə və şərti azadlığa buraxma ilə bağlı məhkəmənin qərarlarına fərqli reaksiyası da diqqətdən yayınmamışdır. Belə ki, birinci qərarı S.Lambrinidis şərh edərkən yalnız EEAS-ın müvafiq bəyanatı ilə məhdudlaşmamış, "məhkəmə prosesinin ciddi şəkildə saxtalaşdırıldığını və qərarın siyasi motivlərə söykəndiyini" iddia etmiş, eyni zamanda Azərbaycana çağırışlar etmişdir. İkinci qərarla bağlı isə xüsusi nümayəndə hər hansı şərh və ya alqışlayıcı ismarıc verməməmişdir.

- Monoloq tərəfləri yaxınlaşdırmağa xidmət etmir. Problemlərin həllində konstruktiv dialoqa üstünlük verilməlidir. Komissar Y.Han ilə xarici işlər naziri E.Məmmədyarov arasında keçirilmiş sonuncu görüş bu ruhda baş tutmuşdur. Məhz bu görüş nəticəsində Azərbaycan tərəfi Strateji Tərəfdaşlıq Sazişi layihəsi üzrə ilkin məsləhətləşmələrin aparılması məqsədilə Aİ nümayəndə heyətinin cari ilin 16-17 dekabr tarixlərində Bakıya səfərinə razılıq vermişdir.

- Azərbaycanın Aİ proqramlarında iştirakına dair Protokolun Avropa Parlamenti tərəfindən ratifikasiya olunmaması Aİ-nin ikitərəfli əlaqələrin inkişafında maraqlı olması ilə bağlı ölkəmizin inamını zədələyir. Bu həm də, Şərq Tərəfdaşlığı proqramında iştirakın nə dərəcədə məqsədəuyğun olması ilə bağlı Azərbaycan tərəfində suallar yaradır.

- Şərq Tərəfdaşlığının çoxtərəfli ölçüsü ikitərəfli münasibətlərin toplusundan ibarət olmamalıdır. Burada layihə yönümlü təşəbbüslərə diqqət ayrılmalıdır. Bu xüsusda, Cənub Qaz Dəhlizi və İpək Yolu kimi trans-regional enerji və nəqliyyat layihələrinin həyata keçirilməsi istiqamətində birgə iş aparılmalıdır. Bu layihələr iştirakçı ölkələrin birgə maraqlarının cəmləşdiyi real, praqmatik təşəbbüslərdir və burada Aİ üzv ölkələri, Aİ namizəd ölkələri, Assosiativ üzvlər və Azərbaycan kimi strateji tərəfdaş ölkələr iştirak edir.

- Şərq Tərəfdaşlığı proqramı həmçinin tərəfdaş ölkələr arasında mövcud əməkdaşlıq formatlarına xələl gətirməməlidir. Təəssüf ki, Aİ-nin Şərq Tərəfdaşlığı proqramında yürütdüyü siyasət GUAM ölkələri arasında ikitərəfli münasibətlərə mənfi təsir etmişdir.

S.Qonzato qaldırılan məsələlərə dair aşağıdakıları bildirmişdir:

- Hər hansı məsələyə dair çevik reaksiya vermək üçün EEAS-ın sözçüsü tərəfindən bəyanatın verilməsi təcrübəsindən istifadə edilir. Aİ Leyla Yunusun səhhətindən narahat idi və ona görə də onun şərti azadlığa buraxılması qərarını bu nöqteyi-nəzərdən qiymətləndirmişdir.

- Bəyanatların verilməsi effektivlik baxımından özünü doğrultmamışdır. Bu o deməkdir ki, EEAS özü bu istiqamətdə öz üzərinə düşən işi səmərəli şəkildə aparmamışdır.

- Aİ Milli Məclisin Avropa Parlamenti ilə əməkdaşlığının dayandırılması haqqında qərarından təəssüflənir. Bununla belə, Aİ Azərbaycan tərəfininin dialoqu davam etdirmək arzusunu məmuniyyətlə qarşılayır. Tərəflər inanmalıdır ki, dialoqun nəticələrinin təsirlərini qısa vaxt ərzində görmək qeyri-mümkündür. Bu xüsusda EEAS düşünür ki, parlamentlərarası nümayəndə heyətlərinin qarşılıqlı səfərləri dialoqun davam etdirilməsi üçün vasitə rolunu oynacaqdır. Bununla əlaqədar, Avropa Parlamentinin Xarici İşlər Komitəsinin (AFET) rəhbəri Elmar Brokun 2016-cı ilin mart-aprel aylarında Bakıya səfəri üzərində işləmək olar.

- EEAS Azərbaycanın Aİ proqramlarında iştirakı ilə bağlı Protokolun Avropa Parlamenti tərəfindən ratifikasiya olunmaması ilə bağlı narazılığını haqlı sayır. EEAS bu sənədin Avropa Parlamentində ratifikasiyasına mane olan deputat

və siyasi fraksiyaları müəyyənləşdirəcək, onlarla müvafiq iş aparacaqdır. S.Qonzato özü şəxsən dekabrın 14-dən sonrakı həftə ərzində Avropa Parlamentinin keçiriləcək plenar sessiyasında iştirak etmək üçün Strasburq şəhərinə ezam olunacaq və bu məsələni orada qaldıracaqdır. Sənədin ratifikasiyasını yubadanlar anlamalıdırlar ki, bunu etməklə kimisə cəzalandırmırlar. Çalışmaq lazımdır ki, əməkdaşlıq üçün mövcud vasitələrdən istifadə olunsun.

- Avropa Qonşuluq Siyasətinin bundan sonrakı mərhələsində tərəfdaşlar, o cümlədən Azərbaycanla münasibətlər "fərqləndirmə" siyasəti üzərində qurulacaqdır. Aİ heç bir tərəfdaş ölkəyə "öyüd-nəsihət vermək" (preaching) prinsipindən çıxış etməyəcəkdir. Ali nümayəndə F.Moqerininin müəyyən məsələlərdə xüsusi mövqeyi isə həmin məsələlərə dair mövcud universal yanaşmadan irəli gəlir.

- S.Lambrinidisin son məhkəmə qərarının əhəmiyyəti ilə bağlı hər hansı açıqlama verməməsi onun Cənubi Afrika Respublikasında səfərdə olması və gərgin səfər proqramından qaynaqlanır. Ümumiyyətlə, S.Lambrinidis Azərbaycanda insan hüquqları və fundamental azadlıqlar ilə bağlı prosesləri diqqətlə izləyir.

Səfir əlavə etmişdir ki, "fərqləndirmə" siyasəti tərəfdaş ölkələr arasında "dərəcələndirmə" ilə nəticələnməməlidir. Digər tərəfdən bu, Aİ-nin AQS ölkələri ilə münasibətlərində və bəyanatlarında müəyyən məsələdə ikili standartlardan çıxış etməsinə şərait yaratmamalıdır. Riqa Zirvə toplantısının Birgə Bəyannaməsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Aİ-nin mövqeyi bunun əyani sübutu olmuşdur. Eyni zamanda, AQS ölkələrində insan hüquqları və demokratiya sahəsində analoji problemlərə Aİ heç də eyni yanaşma göstərmir.

EEAS rəsmisi bildirmişdir ki, Aİ-nin AQS ölkələrində insan hüquqları məsələlərində sərt və ya yumşaq mövqedən çıxış etməsi həmin ölkələrdə olan problemlərdən asılıdır. Misal üçün Tunisdəki vəziyyət onun qonşuları ilə müqayisədə daha qənətbəxşdir. Belə ki, bu ölkədə orta təbəqə formalaşıb və vətəndaş cəmiyyəti təşkilatlarının ictimai proseslərdə iştirakı nəzərə çarpır. Tunislə müqayisədə, Misirdə isə hal-hazırda QHT-lərə təzyiqlərin artdığı görülür.

Sonda, EEAS rəsmisi Azərbaycan-Aİ ikitərəfli dialoqunun müsbət nəticələr doğuracağına ümidvar olduğunu, bu istiqamətdə lazımı səylər göstərəcəyini bildirmişdir.

Məlumat üçün diqqətinizə təqdim olunur.